# Daşkəsəndə sahibkarlara güzəştli kredit verilib

## *Artıq sahibkarlar güzəştli kreditləri elektron qaydada əldə edə biləcəklər*

**Dünən Gəncə-Qazax iqtisadi rayonu üzrə Daşkəsən rayonunda İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun təşkilatçılığı ilə "Sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələləri"nə dair işgüzar forum keçirilib. Sahibkarlığa Kömək Milli Fondu sahibkarlığın inkişafına dövlət dəstəyinin həyata keçirilməsi, onların investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsi və maarifləndirilməsi sahəsindəki tədbirlərini davam etdirib. Daşkəsən Rayon İcra Hakimiyyətinin inzibati binasında Fondun icraçı direktoru Şirzad Abdullayevin də iştirakı ilə keçirilən forumda rayondan olan sahibkarlar, fermerlər və iş adamları iştirak ediblər.**





Forumun açılışını edən Daşkəsən rayon İcra Hakimiyyəti başçısının müavini Namiq Süleymanov dövlət başçısının rəhbərliyi ilə ölkədə quruculuq-abadlıq işlərinin geniş vüsət aldığını, digər şəhər və rayonlar kimi, Daşkəsənin də sürətlə inkişaf etdiyini bildirərək, rayonda yeni istehsal, emal və infrastruktur sahələrinin yaradıldığını, bu sahədə sahibkarların rolunun daha da artdığını qeyd edib.

Tədbirdə Sahibkarlığa Kömək Milli Fondunun şöbə müdiri Samir Hümbətov çıxış edərək, dövlət başçısının uğurla davam etdirdiyi sosial-iqtisadi siyasət nəticəsində regionların inkişafına böyük önəm verildiyini, sahibkarlığın daha da inkişaf etdiyini vurğulayıb. Bildirib ki, hazırda "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir, regionlarda yeni müəssisələr və iş yerləri açılır, sahibkarlıq fəaliyyəti daha da genişlənir. Samir Hümbətov sahibkarların maarifləndirilməsi, onlara zəruri nəzəri biliklərin, praktiki bacarıqların, beynəlxalq təcrübənin öyrədilməsi, həmçinin sahibkarlara tədris-metodiki, innovasiya və konsaltinq xidmətlərinin göstərilməsi sahəsində Fondun həyata keçirdiyi tədbirlər barədə geniş məlumat verib.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev Fondun fəaliyyəti və güzəştli kreditlər hesabına bölgələrdə həyata keçirilən layihələr barədə tədbir iştirakçılarına məlumat verib. Qeyd edib ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, Sahibkarlığa Kömək Milli Fondu yeni yanaşma prinsiplərini davam etdirərək rayon üçün xarakterik olan kartofçuluğun, arıçılığın, heyvandarlığın inkişafı və kiçik istehsal müəssisələrinin yaradılması üzrə investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə sahibkarlıq subyektlərindən təkliflər gözlədiyini bildirib.

**Şirzad Abdullayev Sahibkarlığa Kömək Milli Fondunun "İnvestisiya layihələrinin maliyyələşdirilməsi ilə əlaqədar elektron idarəetmə sistemi" və yeni internet səhifəsi barədə məlumat verib. Bildirilib ki, yeni tətbiq olunan sistemin köməyi ilə artıq sahibkarlar güzəştli kreditləri elektron qaydada əldə edə biləcəklər. Belə ki, sahibkarların güzəştli kredit almaq üçün müraciətindən başlamış, kredit vəsaitinin onun bank hesabına ödənilməsinədək bütün proses elektron qaydada həyata keçiriləcək. Sahibkarlar bu imkanı Fondun rəsmi internet səhifəsinə – www.anfes.gov.az daxil olmaqla əldə edə bilərlər. Yeni sistem vaxt itkisinin qarşısının alınmasına, izafi xərclərin aradan qaldırılmasına kömək edəcək.**

O cümlədən, tədbirdə sahibkarlar üçün treninq də keçirilib. Treninqdə biznes ideyalarının formalaşdırılması, investisiya layihələrinin hazırlanması və təqdim edilməsi qaydaları barədə ətraflı məlumat verilib, güzəştli kreditlərin əldə olunması proseduru, sahibkarlıq subyektləri tərəfindən təqdim edilən investisiya layihələrinin tərtib edilməsinə dair minimal tələblər və müvəkkil kredit təşkilatları barədə məlumatları əks etdirən broşürlər, investisiya layihələrinin hazırlanmasına dair tövsiyə xarakterli materiallar təqdim edilib.

Tədbirdə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq Daşkəsən rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə yerli İcra Hakimiyyəti nümayəndələri və sahibkarlarla məsləhətləşmələr aparılıb. Sonda müvəkkil kredit təşkilatları vasitəsilə Daşkəsən və ətraf rayonlarda fəaliyyət göstərən ümumilikdə 55 sahibkarlıq subyektinə 757 min manat güzəştli kreditlər verilib ki, onlardan 21 sahibkarlıq subyekti 274 min 500 manat olmaqla Daşkəsən rayon sahibkarları olub.

Qeyd edək ki, bu kreditlər hesabına rayonda yeni istehsal müəssisələrinin və yeni iş yerlərinin yaradılması nəzərdə tutulur.

**Tədbirdə çıxış edən sahibkarlar ölkədə özəl bölmənin inkişafına yaradılmış şəraitə, göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.**

**ARASTUN**